

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 75 (21.227)

18 aprel 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Muxtar respublikada yeni Günəş elektrik stansiyası quraşdırılır





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə müasirlikdir, yenilikdir, ekoloji cəhətdən təmiz texnologiyadır. Bu, bizim gələcəyə baxışımızdır".***

Əlverişli coğrafi mövqeyi və iqlim şəraiti muxtar respublikada da ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən, muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Babək rayonunun Xal-xal kəndi ərazisində yeni Günəş elektrik stansiyası quraşdırılır.

Aprelin 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Günəş elektrik stansiyasının yerləşəcəyi əraziyə baxmış, stansiyanın planı ilə tanış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin baş direktoru Yasin Səfərov məlumat vermişdir ki, bu il fevralın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi ilə Belçika Krallığının "Soltech" şirkəti arasında Babək rayonunun Xal-xal kəndi yaxınlığında 20 meqavat gücündə Günəş elektrik stansiyasının quraşdırılması üçün müqavilə bağlanmışdır. Məqsəd muxtar respublikanın elektrik enerjisi tələbatının alternativ enerji mənbələri hesabına ödənilməsini təmin etmək və enerji təhlükəsizliyini daha da möhkəmləndirməkdən ibarətdir. Muxtar respublika ərazisində günəşli saatların orta illik kəmiyyətinin 2600-2800 saat təşkil etməsi bu işlərin uğurla yerinə yetirilməsinə imkan verir.

Bildirilmişdir ki, Günəş elektrik stansiyası üçün uyğun ərazi seçilmiş və torpaq işlərinə başlanmışdır. Stansiyanın qurulmasında Avropa istehsalı olan ən müasir avadanlıqlardan və son texnologiyalara əsaslanan çərçivəsiz Günəş panellərindən istifadə ediləcəkdir. Panellər quraşdırılacaq ərazinin ümumi sahəsi 35 hektardır. Ərazinin relyefinə uyğun olaraq, stansiya 5 hissədən ibarət olacaqdır. Hissələr arasında yeraltı kabel və yüksəkgərginlikli hava verilişi xətləri çəkiləcəkdir. Stansiyada hər birinin gücü 255 vatt olan 78 min 683 ədəd Günəş paneli, o cümlədən sabit cərəyanı dəyişən cərəyana çevirən 21 invertor və 11 transformator quraşdırılacaqdır. İstehsal olunan elektrik enerjisi yaxınlıqdakı 110 kilovoltluq "Xal-xal" transformator yarımstansiyası vasitəsilə muxtar respublikanın elektrik enerjisi şəbəkəsinə ötürüləcəkdir.

Günəş elektrik stansiyası muxtar respublikanın enerji istehsalında alternativ enerji mənbələrinin ümumi payını xeyli artıracaq, ucuz elektrik enerjisi istehsalına imkan verəcəkdir.

Ali Məclisin Sədri Belçika Krallığının "Soltech" şirkətinin baş direktoru Mişel Kallerami və şirkətin mütəxəssisləri ilə görüşmüş, işlərin keyfiyyətlə başa çatdırılmasının vacibliyini vurğulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Qəsəbə və Kənd Bələdiyyələri assosiasiyalarının yığıncaqları keçirilib

*Aprelin 16-da Naxçıvan şəhərindəki Əliabad Qəsəbə Mərkəzində Naxçıvan Muxtar Respublikası Qəsəbə Bələdiyyələri Assosiasiyasının yığıncağı keçirilib. Tədbiri giriş sözü ilə Qıvraq bələdiyyəsinin sədri Mikayıl Tarverdiyev açıb.*

Yığıncaqda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək bildirib ki, dünya təcrübəsində bələdiyyələrin assosiasiyalarının müxtəlif modelləri mövcuddur. Yerli özünüidarə birlikləri ilk dəfə ötən əsrin 70-ci illərinin əvvəllərində Mərkəzi Avropa ölkələrində formalaşdırılıb, sonrakı mərhələdə 90-cı illərin əvvəllərində analoji qurumlar müstəqillik qazanmış Şərqi Avropa və MDB ölkələrində yaradılıb.

Bələdiyyələrin birləşmə hüququ Avropa Şurasının Yerli Özünüidarəyə dair Xartiyasının 10-cu maddəsində öz əksini tapıb. Sənəddə qeyd edilir ki, yerli özünüidarə orqanları öz səlahiyyətlərini həyata keçirən zaman ümumi maraq doğuran vəzifələrin yerinə yetirilməsi üçün digər yerli özünüidarə orqanları ilə əməkdaşlıq etmək və qanunla müəyyən edilmiş hüdudlarda onlarla birləşmək hüququna malikdirlər.

Qeyd olunub ki, Azərbaycan Respublikasında bələdiyyələrin assosiasiyalarının yaradılması "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin Regional Assosiasiyalarının Nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi barədə qanunlarda öz əksini tapıb. Belə ki, bələdiyyələrin regional assosiasiyası müəyyən ərazidə fəaliyyət göstərən bələdiyyələrin öz fəaliyyətini əlaqələndirmək, hüquq və mənafelərini daha səmərəli həyata keçirmək məqsədilə yaratdıqları ittifaqdır. Bu assosiasiyaların əsas məqsədi bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsinə, həmin fəaliyyətin beynəlxalq hüquq normalarına və mövcud qanunvericiliyə uyğun qurulmasına, ortaya çıxan problemlərin birgə həll edilməsinə kömək göstərmək yolu ilə Azərbaycan Respublikasında yerli özünüidarənin möhkəmlənməsinə və inkişafına nail olmaqdır.

Bildirilib ki, muxtar respublikamızda bələdiyyələrin fəaliyyətinin qurulması üçün geniş imkanlar yaradılıb, onların birgə fəaliyyətinin təşkili məqsədilə zəruri infrastruktur formalaşdırılıb. Bu gün assosiasiyaların üzərinə düşən əsas vəzifə yaradılmış şəraitdən istifadə edərək üzv bələdiyyələrin inkişafını, onların maraqlarını təmin etmək, bələdiyyələr arasında sıx əməkdaşlıq üçün çevik mexanizmlər qurmaq, yerli problemləri operativ həll etməyə imkan verən mexanizmlər yaratmaq, bütövlükdə isə ən yaxşı bələdiyyə təcrübələrinin yayılması üçün tədbirlər görmək olmalıdır.

Naxçıvan Muxtar Respublikası Qəsəbə Bələdiyyələri Assosiasiyasının 2006-cı il dekabr ayının 9-da təsis edildiyini, nizamnaməsinin qəbul olunduğunu bildirən Cəlil Rüstəmov deyib ki, Qəsəbə Bələdiyyələri Assosiasiyasının yaranmasından bu günədək qəsəbələrin sosial-iqtisadi inkişafı, ekoloji və digər proqramların hazırlanmasında yerli özünüidarəetmə orqanlarına metodik və əməli köməklik göstərilib, bələdiyyələrin cəmiyyətdə nüfuzunun artırılması, fəaliyyət sahələrinin genişləndirilməsi sahəsində bir sıra işlər görülüb.

Cəlil Rüstəmov 23 dekabr 2014-cü il tarixdə Azərbaycan Respublikası bələdiyyələrinə növbəti seçkilərin keçirildiyini, bir çox bələdiyyələrin tərkiblərində dəyişikliklər olduğunu, bunun üçün də Naxçıvan Muxtar Respublikası Qəsəbə Bələdiyyələri Assosiasiyasının tərkibinin yenidən seçiləcəyini bildirib, qarşıda duran vəzifələrdən danışıb.

Sonra Naxçıvan Muxtar Respublikası Qəsəbə Bələdiyyələri Assosiasiyası sədrinin seçilməsi məsələsi müzakirə olunub. Babək bələdiyyəsinin sədri Cabbar Cəlilovun bu vəzifəyə seçilməsi təklif edilib. Təklif səsə qoyulub və qəbul olunub.

Cabbar Cəlilov yığıncaqda çıxış edərək ona göstərilən etimadı layiqincə doğruldacağını bildirib.

Yığıncaqda assosiasiyanın 7 nəfərdən ibarət idarə heyəti və 5 nəfərdən ibarət nəzarət-təftiş komissiyası seçilib.

Sonda idarə heyətinin yığıncağı olub. İdarə heyətinin üzvləri Heydərabad bələdiyyəsinin sədri Ceyhun Qasımovu Naxçıvan Muxtar Respublikası Qəsəbə Bələdiyyələri Assosiasiyası sədrinin müavini seçiblər.

*Aprelin 17-də Babək rayonunun Qoşadizə Kənd Mərkəzində Naxçıvan Muxtar Respublikası Kənd Bələdiyyələri Assosiasiyasının yığıncağı keçirilib. Tədbiri giriş sözü ilə Nehrəm bələdiyyəsinin sədri Tofiq Abutalıbov açıb.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edib. Qeyd edilib ki, muxtar respublikada fəaliyyət göstərən bələdiyyələr dövlətin diqqət və qayğısı ilə əhatə olunublar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birbaşa rəhbərliyi altında muxtar respublikada geniş vüsət alan quruculuq və abadlıq işlərindən bələdiyyələrə də pay düşüb, müasir tələblərə cavab verən kənd mərkəzlərinin binasında bələdiyyələr üçün yeni iş otaqları ayrılıb, lazımi köməklik göstərilib. Yaradılan şəraitdən düzgün istifadə olunmalı, Kənd Bələdiyyələri Assosiasiyası işini günün tələbləri səviyyəsində qurmalıdır. Xüsusilə "Kənd təsərrüfatı ili" elan olunan 2015-ci ildə kənd bələdiyyələrinin rolu hiss olunmalıdır.

Cəlil Rüstəmov deyib ki, bu gün seçiləcək Naxçıvan Muxtar Respublikası Kənd Bələdiyyələri Assosiasiyasının yeni tərkibi assosiasiyanın nizamnaməsinə uyğun olaraq, mövcud olan problemlərin müəyyənləşdirilərək müvafiq tədbirlərin görülməsinə, kənd bələdiyyələrinin birgə fəaliyyətinin təmin edilməsinə, yerli icra hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı faydalı əməkdaşlığın təmin olunmasına, mədəniyyət və incəsənətin inkişafına köməklik göstərilməsi ilə bağlı bələdiyyələrin birgə fəaliyyətinin təmin edilməsinə, bələdiyyələrə metodik, hüquqi-texniki, təşkilati və informasiya təminatı sahəsində yardımların göstərilməsinə, assosiasiyanın məqsədindən və bələdiyyələrin ehtiyaclarından irəli gələn vəzifələrin həyata keçirilməsinə nail olmalıdır.

Sonra Naxçıvan Muxtar Respublikası Kənd Bələdiyyələri Assosiasiyası sədrinin seçilməsi ilə bağlı Gilançay bələdiyyəsinin sədri Etibar Fərəcov, Şıxmahmud bələdiyyəsinin sədri Zahid Tağıyev, Əbrəqunus bələdiyyəsinin sədri İntiqam Hüseynov çıxış edərək Tofiq Babayevin namizədliyini irəli sürüblər. Təklif səs çoxluğu ilə qəbul olunub.

Tofiq Babayev ona göstərilən etimada görə minnətdarlığını bildirib, bundan sonra da səylə çalışacağını deyib. Sonra səsvermə yolu ilə Naxçıvan Muxtar Respublikası Kənd Bələdiyyələri Assosiasiyası İdarə Heyətinin 9 nəfərdən ibarət tərkibi seçilib. Naxçıvan Muxtar Respublikası Kənd Bələdiyyələri Assosiasiyasının nəzarət-təftiş komissiyasının tərkibi yenə də səsvermə yolu ilə 5 nəfər müəyyənləşdirilib.

Yığıncaqda yerli əhəmiyyətli məsələlərin həllində əhalinin iştirakı, bələdiyyələrin maliyyə imkanlarının artırılması, iqtisadi potensialının gücləndirilməsi məsələləri barədə fikirlər səsləndirilib.

**Səbuhi HÜSEYNOV**

# Xalqımızın milli şüurunun formalaşmasında “Molla Nəsrəddin” jurnalının rolu misilsizdir




*Azərbaycan satirik mətbuatı tarixində xüsusi yer tutan “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasından 109 il ötür. Böyük demokrat ədibimiz Cəlil Məmmədquluzadənin redaktorluğu ilə çıxan bu jurnalın ilk sayı 1906-cı il aprelin 20-də Tiflisdə işıq üzü görüb. “Molla Nəsrəddin” qısa fasilələrlə 25 il nəşr olunub. Dərginin, ümumilikdə, 748 sayı işıq üzü görüb ki, onun da 340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda çapdan çıxıb.*

“Molla Nəsrəddin” jurnalı qısa müddət ərzində böyük nüfuz qazanmış, təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərqdə demokratik mətbuatın inkişafına mühüm töhfələr vermiş, bu sahədə yeni səhifə açmışdır. Xalqın üzləşdiyi sosial-siyasi, iqtisadi və mədəni problemləri satirik üslubun imkanları vasitəsilə, sadə, anlaşıqlı tərzdə oxuculara çatdıran Mirzə Cəlil və onun Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə, Əli Nəzmi, Əliqulu Qəmküsar, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi kimi məslək yoldaşları bütün fəaliyyətləri boyunca Vətənə, millətə layiqincə xidmət göstərmişlər. Xalqın milli mənafelərinin ardıcıl ifadəçisi və müdafiəçisi olan “Molla Nəsrəddin” azadlıq mücadiləsinə, xalqımızın hərtərəfli yüksəlişinə misilsiz töhfələr vermişdir. Bu jurnalın təsiri ilə nəşr olunan “Kəlniyyət”, “Arı”, “Tuti”, “Babayi-Əmir”, “Şeypur”, “Zənbur” kimi satirik mətbuat orqanları onun ənənələrini davam etdirmişlər.

Mollanəsrəddinçilərin zəngin yaradıcılıq irsinin qiymətləndirilməsindən danışarkən görkəmli dövlət xadimi Heydər Əliyevin fikirlərini ayrıca xatırlatmaq gərəkdir. Bu isə təsadüfi deyil. Çünki ulu öndər Heydər Əliyevin fəaliyyətində və təlimində mədəniyyət, ədəbiyyat, incəsənət məsələləri də mühüm yer tutur. Bütün digər sahələrlə yanaşı, xalqımızın mədəni tərəqqisinə ardıcıl diqqət və qayğı göstərən ümummilli liderimiz məruzə, çıxış və nitqlərində bu məsələyə lazımınca nəzər yetirmiş, qiymətli fikirlər söyləmişdir.

Ulu öndərimizin böyük ehtiramla yad etdiyi ustad sənətkarlar sırasında görkəmli yazıçı-dramaturq və publisist Cəlil Məmmədquluzadə xüsusi yer tutur. “Molla Nəsrəddin” jurnalı kimi qiymətli bir mətbuat orqanı nəşr edən görkəmli ədibin yaradıcılığına, çoxşaxəli fəaliyyətinə, əsərlərinin müasirlik keyfiyyətinə xüsusi dəyər verən ümummilli liderimiz demişdir: ***“Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün bizimlədir, bizim sıramızdadır”.***

Müdrik rəhbərimiz Cəlil Məmmədquluzadənin bədii-publisistik əsərlərinin, çoxşaxəli ictimai fəaliyyətinin, nəşr etdirdiyi məşhur “Molla Nəsrəddin” jurnalının xalqımızın tərəqqi və inkişafında ciddi əhəmiyyət daşıdığını vurğulayaraq bildirmişdir ki, “xalqımızın milli şüurunun formalaşmasında məhz “Molla Nəsrəddin” jurnalının və Mirzə Cəlil fəaliyyətinin rolu misilsizdir”.

Jurnalı Mirzə Cəlil dühasının parlaq ifadəsi sayan ulu öndərimiz, bütövlükdə, mollanəsrəddinçilərin milli tərəqqiyə göstərdikləri ardıcıl və çoxşaxəli xidmətləri yüksək qiymətləndirərək demişdir: ***“Cəlil Məmmədquluzadə dühası “Molla Nəsrəddin” jurnalında öz əksini tapdı. “Molla Nəsrəddin”, onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli ruhunun yüksəldilməsində, milli oyanışında böyük rol oynadılar”.***

Mirzə Cəlilin, onun nəşr etdirdiyi “Molla Nəsrəddin” jurnalının gördüyü işləri böyük xəzinə, əvəzsiz xidmət sayan dahi rəhbər mollanəsrəddinçilərin öz fəaliyyətləri və yaradıcılıqlarında milliliklə bəşəriliyin üzvi vəhdətinə nail olmalarını xüsusi qiymətləndirmişdir.

Mirzə Cəlilin nəşr etdirdiyi “Molla Nəsrəddin” jurnalının sadə xalq dilində yazmasını, dərin mənalı karikaturalara müntəzəm yer verməsini ayrıca qeyd edən ümummilli liderimiz rabitənin zəif olduğu XX əsrin əvvəllərində bu mətbuat orqanının böyük sürətlə yayılmasının səbəbini də məhz onun yüksək ideya-bədii dəyərə malik olması ilə əlaqələndirmişdir: ***“Molla Nəsrəddin” jurnalı dünyada məşhurdur. O vaxtlar rabitənin çox zəif olmasına baxmayaraq, “Molla Nəsrəddin” jurnalı dünyanın bir çox ölkələrində yayılırdı, hörmətlə qarşılanırdı, oxunurdu və hər yerdə öz təsirini göstərirdi. Azərbaycanın həyatında “Molla Nəsrəddin” jurnalının xüsusi yeri vardır. O dövrün şəraitinə uyğun olaraq, Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” jurnalını xalqın əksər təbəqələri üçün oxuna bilən, anlaşıqlı səviyyədə nəşr edirdi”.***

Jurnaldakı dərin mənalı yazılarla diqqətəlayiq karikaturaların vahid məqsədə xidmət etdiyini, dərginin həm yazarlarının, həm də rəssamlarının böyük istedad sahibi olduqlarını, ideya-sənətkarlıq baxımından bir-birini uğurla tamamladığını xüsusi vurğulayan ulu öndər demişdir: ***“Təsadüfi deyildir ki, tanınmış rəssamlar Şmerlinqin, Rotterin, Azərbaycanın böyük rəssamı Əzim Əzimzadənin və başqalarının istedadından istifadə edərək, demək olar ki, jurnalda yazılarla bərabər həcmdə olan şəkillər, karikaturalar da verilirdi... O vaxt xalqımızın əksəriyyəti savadsız olduğuna görə, çoxunun oxumaq imkanı olmadığına görə karikaturalar və şəkillər savadsız adamlara da çox təsir bağışlayırdı, sözlər oxunmadan da fikirlər çatdırılıb, bildirilirdi. Jurnal Azərbaycan dilində nəşr olunduğundan o vaxt onu oxuyanların vasitəsilə xalq arasında geniş yayılırdı və çox güclü təsir göstərirdi”.***

Cəlil Məmmədquluzadənin “Molla Nəsrəddin”i yaradanadək böyük hazırlıq keçdiyini, xalq həyatını, məişətini, dünya mədəniyyətini dərindən öyrəndiyini vurğulayan ümummilli liderimiz qeyd etmişdir ki, məhz bunların sayəsində “Mirzə Cəlil “Molla Nəsrəddin” kimi dahiyanə bir məktəb yaratmış və bizə böyük mənəvi irs qoyub getmişdir”.

Ümummilli liderimiz Cəlil Məmmədquluzadə irsinin, “Molla Nəsrəddin”in bütün zamanlarda öz aktuallığını saxlamasına böyük önəm vermiş, mətbuatda “Molla Nəsrəddin” ənənələrinin davamını vacib saymış, “Molla Nəsrəddin” sözünə həmişə ehtiyac duyulduğunu nəzərə çatdırmışdır. Bakıda nəşr olunan “Kirpi” jurnalının “Molla Nəsrəddin” ənənələrinə bağlılığı ilə yanaşı, lazımi səviyyəyə yüksələ bilməməsi də görkəmli siyasi xadimin diqqətindən yayınmamışdır: ***“Kirpi” jurnalı “Molla Nəsrəddin” jurnalının səviyyəsinə çata bilmədi, onun tam davamçısı ola bilmədi, cəmiyyətimizdə onun yerini tuta bilmədi. Halbuki o illərdə də buna ehtiyac çox idi. Bu gün də ehtiyac çoxdur”.***

Bütün bunlara əsasən, dahi rəhbər “Molla Nəsrəddin” jurnalının bütün saylarının yenidən toplu halında nəşr edilərək çağdaş oxuculara çatdırılmasını vacib saymış, bu mühüm işə də ardıcıl diqqət və qayğı göstərmişdir.

Zamanın, dövrün ən mürəkkəb sınaqlarından mərdliklə çıxaraq heç vaxt öz amalından, xalqa xidmət yolundan dönməyən mollanəsrəddinçilərin, xüsusən Mirzə Cəlilin mükəmməl şəxsiyyətini, fədakar ömür yolunu müasir ziyalılar üçün də “böyük tərbiyə mənbəyi, məktəbi” sayan ulu öndər Mirzə Cəlilin ədəbi irsinin daim öyrənilməsini, gələn hər yeni nəslin bu zəngin xəzinədən faydalanmasını vacib sayaraq fikrini belə ümumiləşdirmişdir: ***“Bizim bu gənc nəslimiz, indi yeni dövlətimizi, yeni cəmiyyətimizi formalaşdıran nəslimiz Cəlil Məmmədquluzadənin əsərləri ilə, yaradıcılığı ilə nə qədər yaxından tanış olsa, o qədər bizim dövlətçilik işimiz asan gedər...***

***Mirzə Cəlil yaradıcılığı bu günümüzə və gələcək həyatımıza parlaq işıq saçacaqdır, yollar açacaqdır və müstəqil Azərbaycanın gələcəyə uğurla getməsinə kömək edəcəkdir”.***

Ümumiyyətlə, ulu öndər Heydər Əliyev Cəlil Məmmədquluzadə irsinə, “Molla Nəsrəddin” jurnalına böyük qiymət vermişdir. Təsadüfi deyil ki, dahi rəhbər müsahibələrinin birində müvafiq suallara belə cavablandırmışdır:

– Ən çox sevdiyiniz pyes?

– Cəlil Məmmədquluzadənin “Ölülər” pyesi.

– Ən çox sevdiyiniz jurnal?

– “Molla Nəsrəddin”.

Hazırda respublikamızda bütün sahələrdə olduğu kimi, ədəbiyyat və mədəniyyətə qayğı istiqamətində də ümummilli liderimizin siyasi kursu uğurla davam etdirilir. O cümlədən Mirzə Cəlilin və digər mollanəsrəddinçilərin irsinə də mühüm diqqət yetirilir, böyük qayğı göstərilir. 2006-cı ildə “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasının 100 illiyinin dövlət səviyyəsində qeyd olunması, 2009-cu ildə C.Məmmədquluzadənin 140 illik yubileyinin keçirilməsi barədə Prezident sərəncamının qarşıya qoyduğu vəzifələr istiqamətində həyata keçirilən çoxşaxəli tədbirlər məhz ulu öndər Heydər Əliyevin möhtəşəm siyasətinin uğurlu davamının təzahürüdür. “Molla Nəsrəddin” jurnalının bütün saylarının toplanılıb səkkiz cilddə nəşrinin başa çatdırılması da bu baxımdan xüsusi dəyərə malikdir.

Naxçıvan Muxtar Respublikasında da Mirzə Cəlilin və digər mollanəsrəddinçilərin xatirəsi uca tutulur, onlar ehtiramla yad edilir. C.Məmmədquluzadənin 140 illik yubileyi ilə əlaqədar həyata keçirilən çoxsaylı tədbirlər, hazırlanan nəşrlər, təşkil olunan elmi konfranslar, tamaşaya qoyulan əsərlər, hər il keçirilən “Mirzə Cəlil günləri” və sair mollanəsrəddinçilərin şəxsiyyətinə və sənətinə ümummilli liderimiz Heydər Əliyevin göstərdiyi böyük diqqətin, verdiyi önəmin muxtar respublikada layiqincə davam etdirilməsinin əyani təcəssümüdür.

**Hüseyn HƏŞİMLİ**
***filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi***

## “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyi qeyd edilib



Naxçıvan Dövlət Universitetində “Kitabi-Dədə Qorqud” Avropada” mövzusunda elmi konfrans keçirilib. Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsinin alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyi münasibətilə keçirilən konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb. Rektor qədim mədəniyyət abidələrindən biri olan bu dastanın tədqiqinin, təbliğinin əhəmiyyətindən bəhs edərək qeyd edib ki, ulu öndər Heydər Əliyevin “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin keçirilməsi haqqında” 1997-ci il 20 aprel tarixli Fərmanına əsasən, bu yubiley YUNESKO çərçivəsində dünya səviyyəsində qeyd olunub. Yubiley münasibətilə çoxşaxəli işlər görülüb, “Kitabi-Dədə Qorqud” ensiklopediyası nəşr olunub, abidələr ucaldılıb. Bu gün əsərin ilk tərcüməsi və nəşrinin 200 illiyinin dövlət səviyyəsində qeyd edilməsi milli-mədəni irsi qoruyub yaşatmağa və yeni nəsillərin Azərbaycançılıq ruhunda tərbiyə olunmasına xidmət edir.

Universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanlı “Kitabi-Dədə Qorqud”un dünya dillərinə tərcüməsi, nəşri və tədqiqi tarixindən” adlı məruzəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 fevral 2015-ci il tarixdə imzaladığı “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında” Sərəncamının əhəmiyyətindən bəhs edərək bildirib ki, bu epos XVIII əsrdən məlum olsa da, ilk dəfə 1815-ci ildə alman alimi Henrix Fridrix fon Dits “Kitabi-Dədə Qorqud”un Drezden nüsxəsini tapıb. Bundan sonra Avropa şərqşünaslıq elminin diqqətini cəlb edən dastanın müəyyən qolları 1894-cü ildə rus alimi Bartold, 1916-cı ildə türk tədqiqatçısı Kilisli müəllim Rifət, 1938-ci ildə yenə də türk alimi Orxan Şaiq Gökyay, 1952-ci ildə İtaliya şərqşünası, professor Rossi tərəfindən tərcümə və nəşr edilib. Teodor Nöldeki, İohan Hayn, Hans-Peter Əhməd Şmide, Faruk Sümər, Əhməd Uysal, Uorren Uolker, Pavel Antokolski, Lui Bazən, Altan Göyalp və digər şərqşünas alimlər Dədə Qorqudun şəxsiyyəti, dastanın əhəmiyyəti, hadisələrin cərəyan etdiyi zaman və məkan məsələləri, əsərin dili, üslubu və sair haqqında ciddi tədqiqatlar apanblar.

İngilis dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Ceyran Quliyeva “Oğuz dastanlarının ingilis dilində tərcümə sənətkarlığı”, Rus dili və ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Hüseyn Adıgözəlov “Kitabi-Dədə Qorqud” dastanı rus dilində”, Roman-german dilləri kafedrasının baş müəllimləri Kövsər Abbasova “Kitabi-Dədə Qorqud” alman dilində: tərcüməsi, nəşri və tədqiqi məsələləri”, Məhsəti Əsgərova “Kitabi-Dədə Qorqud” dastanı Fransada” mövzularında məruzələrlə çıxış ediblər. Sonda Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin tələbələri dastandan parçaları Azərbaycan və dünya dillərində bədii qiraət ediblər.

**Mehriban SULTAN**

*Dünən “Naxçıvan” Universitetində tədris prosesində yeni təlim texnologiyalarından istifadə imkanlarına həsr olunmuş konfrans keçirilib.*

## Tədris prosesində yeni təlim texnologiyalarından istifadə imkanları mövzusunda konfrans



Konfransı giriş sözü ilə açan universitetin rektoru, professor İsmayıl Əliyev pedaqogika elminin cəmiyyətin inkişafındakı rolundan bəhs edib, müasir dövrdə pedaqogika elmi qarşısında duran vəzifələrdən, onların icrası istiqamətində yeni texnologiyaların əhəmiyyətindən danışıb. Rektor bildirib ki, tədris prosesinin düzgün qurulması, bu sahədə təlim texnologiyalarının mənimsənilməsi, onların tətbiq olunması günün tələbi kimi təhsil sisteminin qarşısında duran vəzifələrdəndir. Bildirilib ki, bu məsələlərin tədqiq olunmasına müəllimlərlə yanaşı, tələbələrin də cəlb edilməsi müasir dövrün reallıqları baxımından maraq doğurur.

Konfransda “Təlim prosesində informasiya və kommunikasiya texnologiyalarından istifadənin əhəmiyyəti” mövzusunda çıxış edən Pedaqogika və psixologiya kafedrasının müdiri, dosent Nəzakət Yusifova dünya təhsil sisteminə inteqrasiya olunduğumuz bir dövrdə təlim prosesində yeni texnologiyalardan istifadə, onun psixoloji cəhətləri haqqında məlumat verib. Qeyd olunub ki, müasir dövrdə texnologiyaya bir tədris aləti, bilik əldə olunması üsulu kimi yanaşılması şagird və tələbələrin müstəqil düşünmək və mühakimə yürütmək qabiliyyətinin artırılmasına imkan yaradır.

“İnteraktiv təlim metodlarından istifadə və yeni pedaqoji texnologiyaların hazırlanması yolları” mövzusunda çıxış edən Pedaqogika və psixologiya kafedrasının müəllimi Nazlı Abbasova şagirdlərin tədris prosesində əldə etdikləri biliklərin yoxlanılmasında, interaktivliyin təmin olunması ilə qarşılıqlı əməkdaşlıq praktikasından istifadədə yeni texnologiyalardan istifadənin əhəmiyyətindən danışıb.

Konfransda universitetin “Azərbaycan dili və ədəbiyyat müəllimliyi” ixtisası üzrə III kurs tələbələrindən Gültac Tahirlinin “Yeni pedaqoji texnologiyalardan yaradıcı istifadənin təlimin keyfiyyət göstəricilərinin yüksəldilməsinə təsiri”, Zəriş Quliyevanın “Tədrisdə yeni pedaqoji texnologiyaların tətbiqi”, Nərmin Mərdanlının “Müasir təlim metodları və yeni pedaqoji texnologiyalar”, Şahnaz Seyidovanın “Ümumtəhsil məktəblərində İKT-nin rolu” mövzularındakı çıxışları maraqla qarşılanıb.

**Əli CABBAROV**

*18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür*

# Abidələr hər bir xalqın tarixi yaddaşıdır



***YUNESKO-nun Abidələrin Mühafizəsi Məsələləri üzrə Beynəlxalq Şurasının qərarı ilə 1982-ci ildən etibarən hər il aprelin 18-i dünyada "Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü" kimi qeyd olunur. Bu günün keçirilməsində məqsəd insanların diqqətini tarixi abidə və yerlərin qorunmasına yönəltməkdən ibarətdir.***

Azərbaycan tarixi abidələrlə zəngin bir ölkədir. Ulu babalarımızın yadigarı olan abidələr bizə keçmişimizdən xəbər verir, məxsus olduğu dövrün mədəni mühitini, xalqımızın sənətkarlıq xüsusiyyətlərini, təfəkkür və düşüncə tərzini özündə yaşadır. Bu baxımdan tarixi abidələrin mühafizəsi və tədqiqi maddi-mənəvi irsimizin qorunub gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın tarixinin öyrənilməsi, tarixi və mədəni irsinin qorunub saxlanılması sahəsində mühüm işlər görmüşdür. ***"Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir. Dövlət tarix və mədəniyyət abidələrinin qorunmasına təminat verir, onların elmi tədqiqi üçün zəruri qanunların yaradılmasını, fəaliyyətini və inkişafını təmin edir, abidələrdən səmərəli istifadə üçün şərait yaradır"***, – deyən ulu öndərin rəhbərliyi ilə bu sahədə dövlət siyasətini həyata keçirmək üçün zəngin qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsində tarix və mədəniyyət abidələrini qorumaq hər bir vətəndaşın vəzifəsi kimi müəyyənləşdirilmişdir. 1998-ci ildə qəbul edilən "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununda da tarixi abidələrin qorunmasının dövlət təminatı, tədqiqi, mühafizəsi, qanunvericiliyin pozulmasına görə məsuliyyət öz əksini tapmışdır. Ölkəmizdə tarixi-mədəni irsin qorunması istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, 1997-ci ildə Azərbaycan Avropa Mədəniyyət Konvensiyası və Tədqiqi Mərkəzinin üzvü seçilmiş, 1999-cu ildə isə "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına qoşulmuşdur.



Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən tarixi abidələrimizin bərpası və qorunması sahəsində mühüm işlər həyata keçirilir. Son illər tarix və mədəniyyət abidələrimizin bərpasına diqqət və qayğı artırılmış, onların bir çoxu YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına salınmışdır. Ölkə Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nda tarixi abidələrin qorunması, bərpası, öyrənilməsi və təbliği üzrə konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycanın ən qədim yaşayış və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan ərazi baxımından kiçik olsa da, min illərin tarixini yaşadan qədim yaşayış yerləri, tarixi abidələri ilə zəngindir. Muxtar respublika ərazisindəki mağaralar, qədim yaşayış yerləri, möhtəşəm qalalar, qayaüstü rəsmlər, daş qoç heykəlləri və türbələr tarixin dərin qatlarından xəbər verir. Gəmiqaya abidəsi Naxçıvanın ilkin yaşayış məskəni olmasını elmi əsaslarla təsdiq etməklə yanaşı, həm də Azərbaycanın ən qədim dövr incəsənətinin, mənəvi və maddi-mədəniyyətinin ensiklopediyası kimi öz əhəmiyyətini qoruyub saxlayır. Gəmiqaya daşları üzərində həkk olunmuş müxtəlif kompozisiyalı təsvirlər, həndəsi işarələr, piktoqrafik yazılar insan təfəkkürünün, dünyagörüşünün və təsəvvürlərinin tarixinin minilliklərindən bu günə çatdırılması baxımından əvəzsiz mənbələrdir.

Həmçinin Naxçıvan ərazisində mövcud olan Qazma mağarası, Əshabi-Kəhf, Kilit mağarası, I və II Kültəpə, Xaraba Gilan, Quyulu dağ, Möminə xatın, Qarabağlar, Yusif Küseyiroğlu, Gülüstan türbələri, Əlincə qalası, Ovçular təpəsi, Oğlanqala, Xələc, Naxçıvanqala, tarixi təbiət abidələrindən Haçadağ, Batabat, Babək qalası, Dəvəboynu və yüzlərlə başqa tarix və mədəniyyət abidələri keçmişimizi bu günə daşıyan tarixi yaddaşımızdır. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanın hər daşının, hər qayasının tarixin canlı şahidi olduğunu bildirərək demişdir: ***"Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir".***

Bu gün Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələrinin qorunması və tədqiqi istiqamətində ardıcıl tədbirlər görülür. Ali Məclis Sədrinin 2001-ci il aprelin 26-da imzaladığı "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncamından sonra Gəmiqaya rəsmləri elmi əsaslarla öyrənilmiş, bu mövzuda onlarla elmi məqalə və kitablar yazılmışdır. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilmiş, Gəmiqaya ətrafındakı arxeoloji abidələrdə tədqiqatlar aparılaraq etnoqrafik, folklor və onomastik materiallar toplanmışdır. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamı isə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin tədqiqində yeni mərhələnin başlanğıcını qoymuşdur. 2006-2014-cü illərdə muxtar respublikada 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılmışdır.

Muxtar respublika ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması ilə yanaşı, onların bərpası da diqqət mərkəzində saxlanılır. Son illər Möminə xatın türbəsi, Qarabağlar Memarlıq Kompleksi konservasiya edilmiş, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılmış, Yusif Küseyiroğlu və Nuh türbələri, İmamzadə, muxtar respublika ərazisindəki Buzxana abidələri, "Came" məscidi, Zaviyyə mədrəsəsi, İsmayılxan hamamı, Xan sarayı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Naxçıvanqala və digər tarixi abidələr əsaslı bərpa olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı ildə "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında", 2010-cu ildə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında", 2011-ci ildə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında", 2013-cü ildə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında", 2014-cü ildə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin



bərpa edilməsi haqqında" imzaladığı sərəncamlar tarixi-mədəni irsimizin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyətə malik olan sənədlərdir. Ümumiyyətlə, son 20 ildə muxtar respublikada 70-ə yaxın tarix və mədəniyyət abidəsi əsaslı təmir və bərpa olunmuşdur. Hazırda Əlincə qalasında və Gülüstan türbəsində bərpa işləri aparılır.

Bir məsələni də qeyd edək ki, Naxçıvanın abidələri bu qədim yurdun tarixi keçmişini özündə yaşatmaqla bərabər, həm də müasir dövrdə turizm potensialının artmasına xidmət edir. Bu gün Naxçıvan tarixi abidələr və görməli yerlər üzrə səyahət turizminin ən ideal məkanlarındandır. Naxçıvana səfər edən hər bir qonaq buradan xoş təəssüratlarla ayrılır. Muxtar respublikada tarixi abidələrin bərpası, geniş tədqiqi və təbliği turistlər tərəfindən də rəğbətlə qarşılanır.

Muxtar respublikada tarixi abidələrin tədqiqi və beynəlxalq miqyasda təbliği istiqamətində həyata keçirilən ardıcıl tədbirlər artıq öz bəhrəsini verir, Naxçıvan dünyada ilkin yaşayış məskənlərindən biri kimi qəbul edilir. 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan", 2009-cu ildə "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", 2011-ci ildə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", 2012-ci ildə "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzularında beynəlxalq simpoziumların keçirilməsi bu mənada mühüm əhəmiyyətə malikdir. Bu simpoziumlar alimlərimizin xarici ölkələrin aparıcı elmi müəssisə və mütəxəssislərinin iştirakı ilə Naxçıvan tarixinə, arxeologiyasına və folkloruna dair tədqiqatlar aparmasına, ekspedisiyaların təşkil olunmasına, müxtəlif mövzularda kitab, monoqrafiya, dərslik və elmi məqalələrin nəşr edilməsinə əsaslı təkan vermiş, beş minillik tarixə malik Naxçıvan şəhər mədəniyyəti tədqiqat mövzusuna çevrilmişdir. Bu günədək aparılan tədqiqatların nəticəsi və elmi sübutu olaraq 2008-ci ildə "Naxçıvan Abidələri Ensiklopediyası"nın nəşr olunması yalnız Naxçıvanın deyil, bütövlükdə, Azərbaycanın mədəniyyət tarixində mühüm hadisədir. Son illər çap olunan "Naxçıvan tarixi atlası", "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Naxçıvanda arxeoloji tədqiqatlar", "Naxçıvan tarixi" çoxcildliyi və digər kitablar da Naxçıvan tarixi ilə yanaşı, həm də bu qədim diyardakı abidələrin öyrənilməsi baxımından əvəzolunmaz elmi mənbələrdir.

Hər bir xalqın tarixi keçmişinin öyrənilməsində abidələr xüsusi əhəmiyyət daşıyır. Buna görə də tarixi və mədəni irsi qorumaq hər birimizin vətəndaşlıq borcudur. Bu mənada babalarımızın əziz yadigarlarını bərpa etmək keçmişi qorumaq, dünənin ən yaxşı ənənələrini sabaha aparmaq deməkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, Vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar".***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd olunub



Dünən "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə bağlı tədbir keçirilib. Möminə xatın türbəsi qarşısında keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov açıb.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Naxçıvan abidələrinin öyrənilməsi sahəsində qazanılmış nailiyyətlər" mövzusunda çıxışında ümummilli lider Heydər Əliyevin Naxçıvan tarixinin öyrənilməsi sahəsində həyata keçirdiyi tədbirlərdən və qəbul etdiyi qərarlardan danışıb. Bildirib ki, son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bu sahədə bir sıra nailiyyətlər əldə edilib. Ali Məclis Sədrinin tariximizin öyrənilməsi, abidələrimizin qorunması və təbliği haqqında imzaladığı çoxsaylı sərəncamlardan bəhs edən alim qeyd edib ki, muxtar respublikada aparılan araşdırmalar zamanı bu günə qədər 1202 abidə qeydə alınıb.

"Muxtar respublika ərazisində son illər daha 37 abidə aşkar edilib", – deyən Fəxrəddin Səfərli bu sahədə muxtar respublikada aparılan arxeoloji ekspedisiyalar və yeni tapıntılar haqqında da məlumat verib. Vurğulanıb ki, muxtar respublika ərazisindən Neolit dövrünə aid arxeoloji mənbələr Naxçıvanın çox qədimdən insanların yaşayış məskəni olduğunu təsdiqləyir. Hər il ənənəvi olaraq muxtar respublikada ABŞ və Fransadan gəlmiş ekspedisiyalar da arxeoloji qazıntılarda iştirak edirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin arxeoloji ekspedisiyaların fəaliyyətinə xüsusi diqqət və qayğı göstərdiyini vurğulayan alim bu işlərin yüksək səviyyədə həyata keçirildiyini bildirib.

Sonra Naxçıvan Dövlət Tarix Muzeyinin baş elmi işçisi Nərminə Allahverdiyeva "Naxçıvan abidələr diyarıdır" mövzusunda çıxış edib.

Tədbirin sonunda iştirakçılar "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ərazisindəki abidələrə və maddi-mədəniyyət nümunələrinə baxıblar.

Dünən Kəngərli rayonunda Mədəniyyət və Turizm Şöbəsinin təşkilatçılığı ilə Qarabağlar Memarlıq Kompleksinin qarşısında Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə tədbir keçirilib. Tədbiri rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Kərim Qazıbəyov açaraq bu günün əhəmiyyətindən danışıb. Bildirib ki, tarixi abidələr keçmişdən gələcəyə körpü rolunu oynayır. Ulu babalarımızın bizə yadigar qoyduğu tarixi abidələrimiz Azərbaycan xalqının qədim mədəniyyətinin göstəricisidir. Çünki hər bir tarixi abidə məxsus olduğu dövrün mədəni mühitini, təfəkkür və düşüncə tərzini özündə yaşadır. YUNESKO-nun qərarı ilə 1982-ci ildən etibarən hər il aprelin 18-i dünyada "Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü" kimi qeyd olunur. Bu günün qeyd olunmasında məqsəd insanların diqqətini tarixi abidə və yerlərin qorunmasına yönəltməkdən ibarətdir.

Tədbirdə rayonun Tarix-Diyarşünaslıq Muzeyinin baş fond mühafizi, elmi işçi Nəzakət Əkbərova "Tarix və mədəniyyət abidələri xalqımızın milli sərvətidir" mövzusunda çıxış edərək qədim Naxçıvanın tarixi və mədəniyyət abidələrindən söhbət açıb.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada nəqliyyat xidməti günün tələblərinə uyğun qurulub



Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi mart ayında öz fəaliyyətini daha da gücləndirmiş, sərnişinlərin rahatlığının təmin olunması və daşımaların həcminin artırılması diqqətdə saxlanılmışdır. Bu dövrdə "Metro Turizm Səyahət Təşkilatı" şirkəti ilə müqavilə bağlanmış və nəticədə, qardaş Türkiyə Respublikasının müxtəlif şəhərlərinə təşkil olunan sərnişindaşıma xidmətinin səviyyəsi xeyli yüksəldilmişdir. İran İslam Respublikasının ərazisindən keçməklə Bakı-Naxçıvan və Naxçıvan-Bakı marşrutu üzrə xidmətlər də nümunəvi təşkil olunmuş, mart ayı ərzində Naxçıvandan Bakıya 112 reys olmaqla, 4 min 606, əks istiqamətdə isə 4 min 776 sərnişin daşınmışdır. Ötən ay muxtar respublika daxilində sərnişindaşıma xidmətinin səviyyəsi də yüksəldilmiş, 123 marşrut xətti üzrə hərəkət edən 297 avtobus və 487 taksi vasitəsilə rayon mərkəzləri və kəndlərin hamısına gediş-gəliş təmin olunmuşdur.

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanunundan, habelə nəqliyyata dair digər qanunvericilik aktlarından irəli gələn vəzifələrin izahı ay ərzində diqqətdə saxlanılmış, maarifləndirmə işi aparılmışdır. Bu dövrdə nazirliyin "Reyd komissiyası" 8 reyd keçirmiş, qanunazidd hərəkətlər məhdudlaşdırılmışdır. Naxçıvan Avtobus Parkında sərnişindaşımalarını yerinə yetirən sahibkarların və sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilmişdir. Həmçinin qış mövsümünün başa çatması ilə əlaqədar mart ayının 26-dan 31-nə kimi Şərur, Culfa və Şahbuz avtovağzallarında, habelə Naxçıvan Avtobus Parkında sərnişindaşıma ilə məşğul olan avtobus və taksilər texniki müayinədən keçirilmişdir.

Ötən ay 22 fiziki və hüquqi şəxs lisenziyaya cəlb edilmiş, 103 avtonəqliyyat vasitəsinə lisenziya kartları verilmişdir. Bundan başqa, sərnişindaşıma ilə məşğul olan avtobusların təmizliyinə və hərəkət qrafikinə nəzarət edilmiş, yükdaşımalarda təhlükəsizlik tədbirləri gücləndirilmiş, bu məqsədlə 179 nəqliyyat vasitəsi "İcazə blankı" ilə təmin olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

***Muxtar respublikanın hava nəqliyyatı sistemi hər ötən ay daha da təkmilləşdirilir. Xidmətin keyfiyyətinin artırılması üçün infrastrukturun müasirləşdirilməsi və yeni avadanlıqların quraşdırılması işləri ötən ay da davam etdirilmişdir.***



## Naxçıvan Beynəlxalq Hava Limanının fəaliyyəti mart ayında daha da gücləndirilmişdir

Belə ki, martın 29-da Ordubad şəhərində yeni Aviakassa binası istifadəyə verilmiş, həmin ərazidə yaşayan sakinlərin rahatlığı təmin edilmiş, xidmətin səviyyəsi xeyli yüksəldilmişdir. Bu dövrdə aerovağzal binasında da yenidənqurma işləri davam etdirilmiş, 2 ədəd yeni eskalator quraşdırılmışdır.

Bütün növ daşımaların həyata keçirilməsində başlıca şərt uçuşların təhlükəsizliyini təmin etməkdir. Buna görə də hava gəmilərinə uçuşqabağı və uçuşdan sonra müntəzəm olaraq texniki baxış keçirilmişdir. Mart ayında yerli hava xətti ilə 22 min 253 sərnişin, 276 min 152 kiloqram baqaj, 83 min 224 kiloqram yük və 2 min 190 kiloqram poçt, beynəlxalq hava xətləri üzrə isə Naxçıvan-Moskva reysləri ilə 313 sərnişin, 1706 kiloqram baqaj, Naxçıvan-İstanbul reysləri ilə 498 sərnişin və 5 min 83 kiloqram baqaj daşınmışdır.

Reyslərin vaxtında və təhlükəsiz təşkili məqsədilə yanacaq ehtiyatı tədarükü də diqqətdə saxlanılmış, anbarlara tələbatdan artıq yanacaq doldurulmuşdur. O cümlədən yanğın təhlükəsizliyi və qəza-xilasetmə xidməti əməkdaşları müntəzəm olaraq ərazilərdə yoxlamalar keçirmiş, şəxsi heyətlə profilaktik söhbətlər aparılmış, taktiki məşğələlər keçirilmişdir.

Muxtar respublikanın hava nəqliyyatı sisteminin günün tələblərinə uyğun qurulması işləri bundan sonra da davam etdiriləcək, əhaliyə nümunəvi xidmət göstəriləcəkdir.

***Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti***

## Naxçıvan şəhərində keçirilən əmək yarmarkasında 63 nəfərə işə göndəriş verilib

***Əmək yarmarkaları işaxtaran vətəndaşların müvafiq işlə təmin olunmaları sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri hesab olunur.***

Belə yarmarkaların keçirilməsində əsas məqsəd işəgötürənlərlə işaxtaran vətəndaşların bilavasitə qarşılıqlı ünsiyyətinin təşkil edilməsi və bununla da, işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verə bilən ixtisaslı, peşəkar, təcrübəli kadr seçiminə geniş imkanlar yaratmaq, eyni zamanda işaxtaran vətəndaşların mövcud vakant iş yerləri haqqında məlumat almalarına və layiqli işlə təmin olunmalarına köməklik göstərilməsini təşkil etməkdir. Yarmarkalara hazırlıq dövründə həyata keçirilən genişmiqyaslı təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin, işaxtaran vətəndaşların fəal iştirakını təmin edir.

Növbəti belə əmək yarmarkası dünən Naxçıvan şəhərində keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər Məşğulluq Mərkəzinin direktoru Əli Məmmədov açıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı regionda sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrin inkişafına təkan verib. Blokada şəraitində olmasına baxmayaraq, muxtar respublikada sosial-iqtisadi inkişafın artım templəri yüksələn xətt üzrə inkişaf edir. Bu da, öz növbəsində, əmək bazarının həcminin genişlənməsinə və davamlı inkişafına zəmin yaradır. 2014-cü ildə olduğu kimi, cari ildə də muxtar respublikada əmək yarmarkalarının mütəşəkkil keçirilməsi nəzərdə tutulub. Buna görə də Naxçıvan Şəhər Məşğulluq Mərkəzi bu gün keçirilən əmək yarmarkasına geniş hazırlıq işləri apararaq idarə, müəssisə və təşkilatlarla yaxından əlaqə saxlayıb, boş iş yerlərinin mövcudluğunu araşdırıb. Nəticədə, bugünkü əmək yarmarkasına idarə və təşkilatlardan, o cümlədən özəl qurumlardan 537 boş iş yeri çıxarılıb.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov çıxış edərək bildirib ki, insanların sosial rifahının yüksəldilməsi, əhalinin məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Hazırda uğurla davam etdirilən bu strateji xətt muxtar respublikamızın sosial-iqtisadi inkişafını sürətləndirməklə bərabər, yoxsulluğun aradan qaldırılmasına da geniş imkanlar açıb. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Naxçıvan şəhərində də mütəmadi olaraq təşkil edilən əmək yarmarkaları əhalinin məşğulluq məsələlərinin həllində mühüm rol oynayır.

İşaxtaran vətəndaş Tahirə Babayeva əmək yarmarkalarının təşkilinə görə minnətdarlığını bildirib.

Çıxışlardan sonra işaxtaran vətəndaşlar yarmarkada müxtəlif qurumlardan təklif olunan boş iş yerləri ilə maraqlanır, müvafiq qurumların nümayəndələrindən onları maraqlandıran suallara cavablar alırdılar. Biz isə işə göndəriş alan bəzi şəhər sakinləri ilə söhbətləşdik.

Qorxmaz Məhərrəmov Naxçıvan şəhərində yaşayır. Ali təhsilli olmasa da, özünə uyğun iş tapdığını və işə göndəriş aldığını bildirir: "Məşğulluq Mərkəzinə əvvəlcədən müraciət edərək qeydiyyatdan keçmişdim. Mənimlə əlaqə saxlayacaqlarını bildirmişdilər. Ona görə də əmək yarmarkasının təşkil olunacağını gözləyirdim. Yarmarkaya çıxarılmış fərqli işlər çoxdur. Mən də özümə uyğun iş tapmışam və göndərişlə yeni iş yerinə gedirəm".

Digər işaxtaran Samil Məcnunov da özünə uyğun iş tapdığını dedi:

– Əvvəllər də bir neçə dəfə əmək yarmarkalarına müraciət etmişəm. İşə göndəriş alsam da, müəyyən səbəblər üzündən işləmək imkanım olmayıb. Ancaq bu dəfə, deyəsən, bəxtim gətirib. Yeni iş yerinə göndəriş almışam. Düşünürəm ki, indi seçdiyim iş daha ürəyimcədir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən verilən məlumata görə, əmək yarmarkasında 51 təşkilatdan 537 boş iş yeri çıxarılıb, 63 nəfər işaxtaran vətəndaşa işə göndəriş verilib.

**Səbuhi HƏSƏNOV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 18 may 2015-ci ildə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra № | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın axırıncı satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 0,1003 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 5 otaqlı, 85,55 kv.m yaşayış sahəsindən ibarət 95A nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhəri, "20-ci" məhəllə | 130.000 | 130.000 | 6.500 |
| 2. | 46,40 kv.m ümumi, 20,4 kv.m əsas, 26,0 kv.m köməkçi sahədən ibarət qeyri-yaşayış sahəsi | Naxçıvan şəhəri, Atatürk küçəsi, bina 22 | 75.000 | 75.000 | 3.750 |
| 3. | 0,0262 ha torpaq sahəsində yerləşən 1 nömrəli, 6 girişli, 220,7 kv.m əsas, köməkçi sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası (anbar-yeməkxana) | Şərur rayon Çomaxtur kəndi | 70.000 | 70.000 | 3.500 |
| 4. | 1279 kv.m torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 47,94 kv.m yaşayış, 50,16 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayon Qarahəsənli kəndi | 4.800 | 4.800 | 240 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5% məbləğində beh "Kapital Bank" ASC Şərur rayon filialında olan AZ 37 NABZ 01350100000000001944 nömrəli hesaba və "Bank of Azerbaijan" ASC 12 saylı Naxçıvan filialında olan AZ 98 AZEJ 00800450190909001 nömrəli hesaba 13 may 2015-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirakçı haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki № AZ 21 NABZ 12360100000000005944 nömrəli hesaba köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti 6) 13 may 2015-ci il tarixə qədər hər gün saat 9[00]-dan 18[00]-dək qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;
- kommersiya banklarına ödəniləcək behin qəbzi;
- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;
- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.

Hərrac 18 may 2015-ci il tarixdə saat 10[00]-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

**Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.**

**Əlaqə telefonu: 545-01-38**

## Babək rayonunda intellektual oyun

*Babək rayonunda yeniyetmələr arasında "Nuh yurdu" intellektual oyununun rayon birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən oyunun məqsədi Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyətini və tarixini təbliğ etmək, yeniyetmələrin intellektual səviyyələrini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, eləcə də onların asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir. İntellektual oyunda 8 komanda iştirak edib. Oyunun nəticələrinə görə, Qoşadizə kənd tam orta məktəbinin "İnci" komandası birinci yerə layiq görülüb. Digər iki pillədə isə Güznüt kənd tam orta məktəbinin "Nəqşi-cahan" və Kərimbəyli kənd tam orta məktəbinin "Ulduz" komandaları qərarlaşıblar.

Qaliblər təşkilatçılar tərəfindən diplom, fəxri fərman, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Elan

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə ümumtəhsil məktəblərinin VII-XI siniflərində tədris olunan fənlər üzrə ixtisaslı müəllimlərin işə qəbulu ilə bağlı müsabiqə elan edir.

Müsabiqədə iştirak etmək istəyənlər 2015-ci il mayın 1-dən 31-dək aşağıdakı sənədləri Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində yaradılmış sənəd qəbulu komissiyasına təqdim edə bilərlər:

*- şəxsiyyət vəsiqəsi;*

*- ali təhsil haqqında diplomun notarial qaydada təsdiq olunmuş surəti;*

*- iş yerindən arayış.*

Müsabiqə 1-10 iyun 2015-ci il tarixlərdə hər bir fənn üzrə test üsulu ilə aparılacaqdır.

**Əlavə məlumat üçün qeyd olunan telefonlarla sənəd qəbulu komissiyasına müraciət olunmalıdır.**

***Əlaqə telefonları: 545-02-16; 545-02-06***

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi***

### İtmişdir

Naxçıvan şəhəri, Həsən Rəhmanov küçəsi, döngə 3, ev 36[A]-da yaşamış Hüseynov Salman Cəlil oğlunun adına olan 12533 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 318